# M.Ə.SABİRİN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| **1862, 30** may | Ələkbər Zenalabdin oğlu Tahirzadə Şamaxı şəhərində anadan olmuşdur. |
| **1870-1874** | Mollaxanada təhsil almışdır. |
| **1874-1883** | Bakı quberniya ruhani məclisinin nəzdində Şamaxıda "Məclis" məktəbi kimi tanınan görkəmli şair Seyid Əzim Şirvaninin (1835-1888) dərs dediyi məktəbdə dünyəvi elmləri həvəslə öyrənmiş, klassik ədəbiyyatı mütaliə etməyə ciddi maraq göstərmişdir. |
| **1884** | Orta Asiya və Yaxın Şərqə səyahətə getmiş, Aşqabad, Səmərqənd, Buxara, Səzvar, Türbəti-heydəriyyə, Türbətican, Nişabur, Xorasan, Mərv, Həmədan və b. şəhərlərdə olmuşdur. |
| **1886** | Uzaq qohumlarından olan Billurnisa adlı bir qızla evlənmişdir. |
| **1822-1823** | İranda səyahətdə olmuşdur. |
| **1902, 12 fevral** | Şamaxıda baş vermiş dağıdıcı zəlzələni təsvir edən "Üç yüz on doqquz idi bəd həzadır" adlı şeirini yazmışdır. |
| **1903** | "Şükr lillah ki, afitabi-süxən" adlı ilk şeiri "Şərqi-Rus" qəzetində dərc edilmişdir. |
| **1906** | "Bir məclisdə on iki kişinin söhbəti" adlı ilk satirası "Həyat" qəzetinin 33-cü sayında dərc olunmuşdur;<br>Şamaxıda ilk müsəlman kitabxana- qiraətxanasının açılışında çıxış etmişdir;<br>Bakıda olmuş və "Dəbistan" jurnalının redaktoru Ə.İ.Cəfərzadə ilə görüşmüşdür. |
| **1906, 28 aprel** | "Molla Nəsrəddin" jurnalında "Millət necə tarac olur-olsun, nə işim var?" satirası ilə fəaliyyətə başlamışdır. |
| **1906-1907** | "Həyat", "İrşad" və "Tazə həyat" qəzetlərinin Şamaxı üzrə müxbiri işləmişdir. |
| **1907** | "Molla Nəsrəddin" jurnalı ilə yanaşı, "İrşad" qəzetində, "Bəhlul" jurnalında və b. mətbuat orqanlarında əsərlər dərc etdirmişdir;<br>Şamaxıda "Ümid" məktəbi təşkil etmişdir və orada müəllimlik<br>"Ümid" məktəbində müəllimlik etmişdir. |
| **1908** | Tiflisə getmişdir; |

| | |
|---|---|
| | Şamaxıda Əbdül Xalıq Əfəndinin "Üxuvət" məktəbində müəllimlik etmişdir; |
| **1910** | Bakıya gəlmiş, Balaxanı "Camaat" məktəbində müəllim-lik etmiş, şəriət, sərf-nəhv, türk və fars dillərini təlim etmişdir;<br>"Nur" kitabxanasında fəhlələr üçün açılmış kurslarda pulsuz dərs demişdir;<br>Şeirləri "Zənbur" jurnalı, "Günəş" və "Həqiqət" qəzetlərində dərc olunmuşdur;<br>"Həqiqət" qəzetində işləməyə başlamışdır. |
| **1910, sentyabr** | Qaraciyər xəstəliyinə tutulmuşdur. |
| **1910, noyabr** | Balaxanı "Camaat" məktəbindən çıxarılmışdır. |
| **1910, dekab** | Bakıdan Şamaxıya qayıtmışdır. |
| **1911, yanvar** | Müalcə olunmaq üçün həyat yoldaşı Billurnisa və qardaşı oğlu Zeynalabdınla birlikdə Tiflisə getmişdir; |
| **1911, fevral-mart** | Tiflisdə Mirzə Cəlil Məmmədquluzadənin evində müalicə olunmuşdur. |
| **1911, aprel-may** | Şamaxıda xəstə yatmışdır. |
| | Müalicə olunmaq üçün yenidən Tiflisə getmişdir; |
| | Əməliyyat edilmək üçün Bakıya gəlmiş, lakin əməliyyat baş tutmadığı üçün Şamaxıya qayıtmışdır;<br>Şamaxıda vəfat etmiş və "7 günbəz" qəbiristanlığında dəfn edilmişdir. |
| **1912** | Vəfatından bir il sonra həyat yoldaşı Billurnisa xanım, dostları Abbas Səhhət və M.Mahmudbəyovun səyi ilə onun şeirləri "Hophopnamə" adı ilə çap olunmuşdur. |
| **1919** | Xəzər Sahili İstehlak Cəmiyyətləri İttifaqı tərəfindən Bakıda M.Ə.Sabir adına kitabxana təsis edilmişdir. |
| **1922** | Bakıda indiki M.Ə.Sabir bağında şairə heykəl qoyulmuşdur. |
| **1936** | Hökumət şairin vəfatının 25 illiyinin keçirilməsi barədə qərar qəbul etmişdir. |
| **1937** | Vəfatının 25 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmişdir. |
| **1947** | Anadan olmasının 85 illiyi qeyd edilmişdir. |
| **1952** | Anadan olmasının 90 illiyi qeyd edilmişdir. |

| | |
|---|---|
| **1957** | Mətbuatda Sabirin Şamaxıdakı evinin bərpası, heykəlinin yenilənməsi tələbi ilə əlaqədar ziyalıların məktubu çap olunmuş və heykəl yenisilə əvəz edilmişdir. |
| **1958** | M.Ə.Sabirin anadan olmasının 100 illiyi ərəfəsində SSRİ-də poçt markası buraxılmışdır. |
| **1962** | Anadan olmasının 100 illik yubileyi respublikamızın və keçmiş Sovetlər İttifaqının bir çox yerlərində böyük təntənə ilə qeyd olunmuşdur;<br>“Hophopnamə”nin akademik nəşri çap olunmuşdur. |
| **1975** | “Sabir poeziya günləri” adlı birinci almanax nəşr edilmişdir. |
| **1987** | Anadan olmasının 125 illiyi qeyd olunmuşdur. |
| **1992** | Anadan olmasının 130 illiyi qeyd olunmuşdur. |
| **1997** | Anadan olmasının 135 illiyi qeyd olunmuşdur. |
| **2002** | Anadan olmasının 140 illiyi qeyd olunmuşdur. |
| **2004** | “Hophopnamə” İlham Əliyevin 12 iyun 2004-cü il tarixli Sərəncamı ilə latın qrafikası ilə çap olunmuşdur. |
| **2007** | Anadan olmasının 145 illiyi qeyd olunmuşdur. |
| **2010** | M.Ə.Sabirin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncam imzalamışdır. |
| **2011** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxının Sabir qəsəbəsində şairin abidəsinin açılışında iştirak etmişdir. |